"Gənc Liderlər"
Uşaq Təşkilatı

# MEHRİBAN ƏLİYEVA OLDUĞU KİMİ

Bakı-2008

Redaktor və məsləhətçi: **Tahir Şahbazov**
*tarix elmləri namizədi*

Ön sözün müəllifi: **Nizami Cəfərov**
*professor*

"Gənc Liderlər" Uşaq Təşkilatı. "Mehriban Əliyeva olduğu kimi". Bakı-2008, 96 səhifə

© "Gənc Liderlər" 2008

# ALİM XEYİR-DUASI



*Nizami CƏFƏROV*
***Millət vəkili,***
***AMEA-nın müxbir üzvü***

Heç kimə sirr deyil ki, Azərbaycan xalqının sabahı, gələcəyi gənclərə, onların dövlətimiz üçün yararlı bir vətəndaş kimi yetişməsinə bağlıdır. Bu gün ölkəmizin başlıca məqsədi gənclərin, uşaqların fəaliyyət sferasını genişləndirmək, onların həm fiziki, həm də mənəvi baxımdan sağlam böyüməsini təmin etməkdən ibarətdir.

Heydər Əliyev Fondu da yaranandan bəri Azərbaycan gənclərinin, uşaqlarının sağlam böyüməsi üçün mübarizə aparıb və çox böyük işlər görüb. Bu sahədə xüsusi layihələrin həyata keçirilməsi, uşaqlar üçün xeyriyyə konsertlərinin təşkili, təhsilin inkişafı üçün görülən işlər Azərbaycanın gələcəyinə qoyulan kapi-

taldır. Bir zamanlar bu işləri ümummilli liderimiz Heydər Əliyev görürdüsə, indi bu fəaliyyəti Azərbaycan dövləti, ölkə başçısı, Heydər Əliyev Fondu və onun prezidenti Mehriban Əliyeva uğurla davam etdirir. Və bu görülən işlər də göstərir ki, həqiqətən bizim çox güclü gəncliyimiz var. Bu gənclik mənən, ruhən Azərbaycan dövlətçiliyinə bağlı, həm də dünyanın tələb etdiyi xüsuslara cavab verə biləcək şəkildə yetişir.

Mən uşaqların səmimi təşəbbüsü sayəsində işıq üzü görən "Mehriban Əliyeva olduğu kimi" kitabını yüksək qiymətləndirir, bunu uşaqların real düşüncələrinin tərənnümü və Mehriban xanım Əliyevaya böyük hədiyyəsi hesab edirəm.



Redaktordan

## UŞAQLAR HƏMİŞƏ SÖZÜN DÜZÜNÜ DEYİRLƏR



***Tahir ŞAHBAZOV***
***Tarix elmləri namizədi***

1991-ci ildən - Azərbaycanın öz dövlət müstəqilliyini bərpasından sonra cəmiyyət həyatında baş verən dəyişikliklər göz qabağındadır. Xüsusilə 1993-cü ildən başlanan demokratikləşmə, dünya birliyinə inteqrasiya, ümumbəşəri dəyərlərin tətbiqi, iqtisadiyyatın liberallaşdırılması, insan hüquq və azadlıqlarının Konstitusiya səviyyəsində təsbiti və qorunması kimi proseslər dönməz xarakter almışdır. Təsadüfi deyildir ki, Azərbaycan bu gün demokratik ölkələri birləşdirən ən nüfuzlu beynəlxalq təşkilatlarda

təmsil olunmaqla, dünya birliyində öz layiqli yerini tutmuş, siyasi, iqtisadi və mədəni cəhətdən sürətlə inkişaf edən gənc dövlətlər sırasına daxil olmuşdur. Qısa zaman kəsiyində belə böyük uğurların qazanılmasının kökündə isə hakimiyyətin balanslaşdırılmış daxili və xarici siyasət kursu, hakimiyyət-xalq birliyi, vətəndaşların özlərinin hüquq və azadlıqlarını, vəzifə və öhdəliklərini yüksək səviyyədə dərk etməsi kimi vacib faktorlar dayanır.

Bu müddəaları böyük cəsarətlə Azərbaycanda uşaq hüquqlarının qorunması məsələsinə də aid etmək olar. Belə ki, son illər bu istiqamətdə də diqqət çəkən irəliləyişlər əldə olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİSEF) xətti ilə uşaqların müdafiəsini nəzərdə tutan müxtəlif beynəlxalq layihələr Azərbaycanda çox uğurla həyata keçirilmiş və keçirilməkdədir. Təşəbbüskarlığın artması, uşaqların ictimai fəallığının genişlənməsi və sürətlə təşkilatlanma da məhz Azərbaycan cəmiyyətində uşaqların öz hüquq və azadlıqlarını kifayət qədər dərk etməsinin nəticəsidir.

Bu kontekstdə son illər ölkəmizdə uşaq hərəkatında olduqca çevik iştirak edən "Gənc Liderlər" Uşaq Təşkilatının



fəaliyyəti də diqqəti cəlb edir. Rəhbərliyi də, üzvləri də yalnız uşaqlardan ibarət olan bu uşaq təşkilatının qısa zaman kəsiyində Azərbaycanın ictimai-siyasi həyatının ən vacib məsələlərini əhatə edən layihələr həyata keçirməsi xüsusilə təqdirəlayiqdir. Bakı şəhər Dövlət Yol Polisi İdarəsi, ictimai təşkilatlar, icra strukturlarının nümayəndələri, millət vəkilləri, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları ilə birgə həyata keçirilən həmin layihələr KİV tərəfindən geniş şəkildə işıqlandırılmışdır. Həmin tədbirlərin bir çoxunun iştirakçısı kimi, mənim təəssüratlarım bu barədə olduqca müsbətdir. Eyni zamanda bir sıra mətbu orqanlarının, televiziya şirkətlərinin, ən çox da İctimai Televiziyanın "Gənc liderlər"ə göstərdiyi diqqət və mənəvi dəstək də ən xoş sözlərə layiqdir.

"Mehriban xanım olduğu kimi" kitabı "Gənc liderlər"in növbəti layihəsidir. Hər hansı təmtəraqdan, mədhiyyədən və reklamdan uzaq olan bu kitab ölkənin bir qrup qabaqcıl şagirdinin düşüncələrini və ürək sözlərini əks etdirir. Hazırkı kitab bolluğunda, "söz bazarı"nın ucuzluğunda belə bir kitabın "dünyaya gəlməsi" doğrudan da sevindirici haldır və mən məmnuniyyətlə ona redaktor olmağa razılıq verdim. Niyə?

Əvvala, gələcəyimizin qurucuları olacaq bu uşaqlara kömək etməyi mənəvi borc saydım. İkincisi, uşaqların cəsarəti və təşəbbüskarlığı diqqətimi cəlb etdi. Üçüncüsü, hesab etdim ki, belə bir kitab bizə həqiqətən lazımdır, çünki o, ürəkləri, qəlbləri, beyinləri hələ də tərtəmiz olan uşaqların fikir və düşüncələrini əks etdirir; uşaqlar isə həmişə sözün düzünü deyirlər.

Nəhayət, uşaqların Mehriban xanım Əliyevanı öz əsərlərinin baş qəhrəmanı kimi seçməsi də təsadüfi deyil. Mehriban xanımın xarici ölkələrdə Azərbaycanı yüksək səviyyədə təmsil etməsi, ölkə daxilində çoxşaxəli mədəni quruculuq işləri aparması, xüsusilə uşaqların xoşbəxt gələcəyi üçün etibarlı zəmin yaratmağa çalışması onu həmin uşaqların sevimlisinə çevirmişdir. Odur ki, uşaqların fikir və iradəsinə təsir göstərmədən mən belə qərara gəldim ki, onlar ən doğru olanı edirlər.

Beləliklə, "Mehriban Əliyeva olduğu kimi" oxucuların hüzurundadır. Heç şübhəsiz ki, yekun sözünü də onlar deyəcəklər.





## ӘLİYEVA MEHRİBAN ARİF qızı

Əliyeva Mehriban Arif qızı Bakı şəhərində anadan olmuşdur.

1982-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur.

1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

1988-1992 illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-tədqiqat İnstitutunda işləmişdir.

1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hal-hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunmuşdur.

1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis etmişdir.

2002-ci ildə Mehriban Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmiş və həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirmişdir. Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının Bədii Gimnastika üzrə 2003 və 2004-cü il Dünya Kuboku yarışlarının və 2005-ci il Dünya Çempionatının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynamışdır.

Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Heydər Əliyev Fonduna rəhbərlik edir. 2004-cü il may ayının 10-da Heydər Əliyev Fondunun rəsmi açılışı olmuşdur.

2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir.

2004-cü ildən Yeni Azərbaycan

Partiyası Siyasi Şurasının üzvüdür.

2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən Mehriban Əliyeva "İlin qadını" adına layiq görülmüşdür.

2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdür.

2005-ci ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

2005-ci il noyabrın 6-da Milli Məclisə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Əzizbəyov ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 92.12% (23106 səs) səs toplayaraq deputat seçilmişdir.

Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə Mehriban Əliyevanı "2005-ci ilin adamı" elan etmişdir.



Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban Əliyeva 2006-cı il noyabrın 24-də İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

Dünya Səhiyyə Təşkilatı (DST) İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Mehriban Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına layiq görülmüşdür.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə görə 2007-ci ilin mayında Mehriban Əliyeva "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülmüşdür.

Ailəlidir, iki qızı, bir oğlu var.

# MEHRİBAN ƏLİYEVA OLDUĞU KİMİ



***Fərid ŞAHBAZLI***
***"Gənc liderlər" Uşaq Təşkilatının sədri,***
***7 saylı məktəbin şagirdi***

"Gənc Liderlər" Uşaq Təşkilatı 2006-cı il iyun ayının 1-də - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə bir qrup məktəbli tərəfindən təsis edilmişdir. Azərbaycanda uşaq hüquqlarının müdafiəsini, onların sosial-məişət və təhsillə bağlı problemlərinin həllinə kömək məqsədini qarşıya qoyan təşkilat, yarandığı bir ildən artıq müddətdə fəaliyyət sferasını xeyli genişləndirməyə nail olmuşdur.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birgə Bakı Məktəblilərinin Parlamenti (BMP), Bakı şəhəri Dövlət Yol Polisi İdarəsi ilə "Təhlükəsiz Piyada" və "Uşaq Televiziyası" layihələrinin müəllifi olan "Gənc Liderlər" qısa müddət ərzində ölkəmizin ictimai və mədəni həyatında özünəməxsus yer tutmağa nail olmuşlar.

Fəaliyyəti beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilən "Gənc Liderlər" Uşaq Təşkilatı 2007-ci ildə Avropa Uşaq Birliyinin (EUROCHİLD AİSBL) üzvlüyünə qəbul edilmiş, lakin sonradan Azərbaycan həqiqətlərini təhrif etdiyi və Dağlıq Qarabağ məsələsi ilə bağlı yanlış informasiyalar yaydığı üçün qurumun sıralarından istefa vermişdir.

Bununla bərabər təşkilatımız qısa müddət ərzində "Türkiyə Uşaq Birliyi", "Rusiya Uşaq Şəbəkəsi" və Gürcüstanın "Gənc İntellektuallar Klubu" ilə sıx əməkdaşlıq əlaqələri qura bilmişdir. Dəfələrlə bu təşkilatların xətti ilə keçirilən beynəlxalq tədbirlərə dəvətlər almışıq. Lakin özümüzdən asılı olmayan səbəblərə görə həmin dəvətlər reallaşmamışdır.

"Gənc liderlər" təşkilatı müntəzəm olaraq təqdim olunan "Uşaqların dostu" mükafatının da təsisçisidir. Bu günə qədər bir sıra tanınmış ziyalılar, elm və mədəniyyət xadimləri, millət vəkilləri həmin mükafata layiq görülmüşlər.

Təşkilatımızın xətti ilə dəfələrlə təhsilin səviyyəsi, nizam-intizam, məktəbli forması ilə əlaqədar məktəblərdə vəziy-

yətlə bağlı monitorinqlər keçirilmiş, nəticələr Kütləvi İnformasiya Vasitələri ilə ictimaiyyətə elan olunmuşdur.

Bu gün diqqətinizə təqdim olunan "Mehriban Əliyeva olduğu kimi" kitabı da təşkilatımızın 2008-ci ili "Uşaq İli" elan etməsi ilə əlaqədar həyata keçirdiyi növbəti layihədir. Odur ki, bu nəşrin işıq üzü görməsi heç də təsadüf sayılmamalı, azərbaycanlı uşaqların böyük istək və arzularının təcəssümü kimi qiymətləndirilməlidir.

Kitabda Bakı şəhərinin ən qabaqcıl məktəblərini təmsil edən şagirdlərin Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın ictimai, elm və mədəniyyət sahəsindəki fəaliyyəti haqqında fikir və düşüncələri əksini tapmışdır.

Belə bir kitabın meydana çıxmasını şərtləndirən səbəblər hansılardır?

Heç kimi sirr deyil ki, 2004-cü ildə Heydər Əliyev Fondunun yaradılması ilə ölkəmizin ictimai-sosial və mədəni həyatında bir canlanma müşahidə olunur. Fondun prezidenti Mehriban Əliyevanın qısa müddət ərzində həyata keçirdiyi çoxcəhətli fəaliyyət bütün həyat sahələrində özünü göstərir və bu, Azərbaycan cəmiyyətinin bütün təbəqələri tərəfindən böyük razılıqla qarşılanır.

Heydər Əliyev Fondu Azərbaycan təhsilinin səviyyəsinin yüksəldilməsi, uşaqların rahat, yüksək maddi-texniki bazaya malik məktəblərdə təhsil alması üçün müxtəlif layihələr həyata keçirir. Yeni-yeni məktəb binalarının tikilməsi, uşaq bağçaları və internatların müasir tələblər səviyyəsinə gətirilməsi, "Kor və görmə qabiliyyəti az olan şəxslər üçün təhsil" layihəsi və s. dediklərimizə əyani sübutdür.

Mehriban xanımın bu məsələlərə təkcə peşəsindən irəli gələn vəzifənin icrası kimi deyil, həm də vətəndaş borcu kimi yanaşması isə onun ölkəmizin gələcəyi olan uşaqların hərtərəfli təmin olunmasına bəslədiyi böyük arzu və istəklərindən irəli gəlir.

Mədəni dəyərlərimizin qorunması, onların yad ünsürlərin təsiri altına düşməməsi üçün Mehriban Əliyevanın gördüyü işlər də təqdirəlayiqdir. Təkcə Muğam müsabiqəsinin keçirilməsi faktını demək kifayətdir ki, M.Əliyevanın Azərbaycan mədəniyyətinin hamisi olduğunu etiraf edəsən.

Ümumiyyətlə, bu gün ölkəmizin həyatının bütün sahələrində Heydər Əliyev Fondunun və onun rəhbərinin zəhmət izləri özünü göstərməkdədir. Mehriban xa-

nımın peşəsindən irəli gələrək, uşaq və gənclərimizin həm də fiziki cəhətdən sağlam böyüməsi istiqamətində fəaliyyəti, yeni-yeni səhiyyə ocaqlarının açılması, səhiyyəmizin müasir avadanlıqlarla təmin olunaraq, dünya standartlarına yüksəldilməsi onun gördüyü geniş miqyaslı işlərin yalnız bir hissəsidir.

Bu il Mehriban Əliyevanın hazırladığı qanun layihəsi əsasında verilən amnistiya aktı nətcəsində yüzlərlə insanın azadlığa qovuşması, yüzlərlə ailələrə, uşaqlara hədiyyə edilən sevinc payı da bu xanımın xarakterindəki humanizmdən irəli gəlir.

Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə ölkə miqyasında deyil, dünya səviyyəsində yüksək qiymətləndirilir. Rusiya Federasiyası Federal Məclisi Fedarasiya Şurasının sədri Sergey Mirinovun "Mehriban Əliyeva kimi, xeyirxah və qızıl ürəkli insanlar bütün dünyaya fəzilət bəxş edir", Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi İqor İvanovun "Mən Mehriban Əliyevanın fəaliyyətini yüksək bəşəri iş sayıram", Dünya Səhiyyə Təşilatının baş direktoru Marqaret Çanın "biz Mehriban Əliyevanın xidmətlərini yüksək qiymətləndiririk" sözləri də fikirlərimizi bir daha təsdiqləyir. "Sivilizasiyaların yaxınlaşmasında Mehriban



Əliyevanın xidmətləri böyükdür" - bu tarixi sözlər isə İSESCO-nun baş direktoru Əbdüləziz ibn Osman Əl Tuveycriyə məxsusdur və Azərbaycanın birinci xanımının çoxcəhətli fəaliyyətinin göstəricisi kimi çıxış edir.

Beləliklə, Mehriban xanım Əliyevanın uşaqların kollektiv əməyinin məhsulu olan bu nəşrin baş qəhramanı kimi seçilməsi tamamilə təbii və qanunauyğundur. Güman edirik ki, hər hansı tərifdən, bayağı ibarələrdən və gurultulu notlardan uzaq olan bu kitab bütün uşaqların ürəyincə olacaq.

## ALLAH SİZİ BU TORPAĞA, BU XALQA ÇOX GÖRMƏSİN!

### Millət bu nəcib, savab əməlləri heç vaxt unutmayacaq



*Aqil MEHDİ*
*"Parlaq Gələcək" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri*

Bu kitabda söz söyləmək açığı çox çətin bir işdir. Çünki deyiləcək söz, gərək haqqında danışılan insana uyğun olsun, yaraşsın. Və yazılan fikirlərdən fərqli nəsə söyləyə biləsən. Hər halda Fərid qardaşımızın bizə də söz deməyi həvalə etməsi, boynumuza düşən bu yükü qaldırmamızı bəlirləyir.

İncəsənət məbədinin mehrabı qarşısında hər xalq zaman-zaman yetişdirib ərsəyə çatdırdığı övladlarını - sənət əsərlərini gətirmişdir. İtalyanlar şöhrətli İntibah dövrünü, almanlar Düreri, Kranaxı, Qotikanın nadir incilərini. Macarlar Ferens Listi. ispanlar El-Qrekonu, Servantesi, Velaskesi, fransızlar klassik baleti, romantizmi... Bu siyahını çox uzaltmaq olar. Bəşər mədəniyyəti nəhəng, misilsiz xəzinədir. Buradakı ləl-cəvahiratı qiymətə vurmaq qeyri-mümkündür. Hər sənət incisinin öz yeri, öz sahibi var.

Əsrlər, qərinələr boyu var-yoxumuz bir dəfə də olsun, adımıza çıxmadı. Dərd burasında idi ki, yazanımız da yox idi. Mədəniyyətimiz gah Əhaməniş, Ellinizm eqidası altına salındı, gah da Sasani mədəniyyətinin ayrılmaz hissəsi kimi təqdim olundu. Min ildən çox dövrdə də nə edildisə, nə yaradıldısa da, hamısının üzərinə "İslam svilizasiyası" möhürü vuruldu. Ancaq sovet hakimiyyəti illərində ilk dəfə olaraq ittifaq miqyasında əlahiddə olaraq Azərbaycan mədəniyyətindən söhbət getdi, elmi tədqiqat əsərləri yazıldı. İlk dəfə olaraq, milli təsviri sənətimizin şah əsərləri Təbriz miniatürlərindən, milli musiqimizdən, tətbiqi sənətimizdən söhbət açıldı. Sovet hakimiyyəti illərində əldə edilmiş nailiyyətlər sayəsində biz fəxrlə milli təkrarsız mədəniyyətimizdən danışa bildik. Demək olar ki, hər sahədə ziyalılarımız sözlərini deyə bildilər. Nə az, nə çox, düz 60 il ərzində Lətif Kərimov kimi dahi təqdiqatçı dünya dekora-

tik sənətində millətimizin həlledici rol oynadığını və çox sahədə də, hətta müəllim olmasını sübuta yetirmək üçün çalışdı. Niyə həqiqəti danaq, niyə deməyək ki, məhz Heydər Əliyevin qayğısı sayəsində Bakıda təşkil olunmuş xalçaçılıq üzrə beynəlxalq simpoziumda dekorativ sənətin bu sahəsinə millətimizin möhrü vuruldu. Və dünya da bunu qəbul etdi. Sonrakı illərdə nələrin baş verməsindən danışmıram. Bunlar məlumdur. Hərbi məğlubiyyətin acısını dadmış xalq, beynəlxalq aləmdə erməni diasporasının və səlib dünyasının mütəşəkkil təxribatı ilə üzləşəndə isə özünü tamam itirdi. Azərbaycanın neçə-neçə adlı-sanlı alimi, sənətkarı dünyasını dəyişmiş, beynəlxalq aləmdə təklənmişdik. Təbliğat məsələsində isə, bizim lovğa, pulgir "ideoloqlarımız" çoxdan uduzmuşdular. Sivil dünyada biz sözümüzü demək üçün tamam başqa yollar tanımalı idik. Və ürəyi Vətən eşqi ilə çarpışan insanların sayəsində də onu tapdıq. Heydər Əliyev fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva dahi sənətkarımız Lətif Kərimovun estafetini yerdən qaldırdı! Yüksək intellekt sahibi olan hörmətli 1-ci xanımımız Qərbin qarşısında hansı irslə çıxacağını düz hesablamışdı. Biz sübut etməliydik ki, Bəşər mədəniyyətinin nəhəng sübutlarının biri sayılan dekorativ sənətdə, onun aparıcı sahəsi xalçaçılıqda hamıya müəllimlik etmişik. Qarşımızda təkcə bədxahlığı çoxdan bəlli olan erməni millətçiləri yox, eyni zamanda, bu sahədə əsrlər boyu sözünü demiş bütün yaxın şərqin xalqları dururdu. Titanik zəhmətin sayəsində, nəhayət beynəlxalq təşkilatlar səsimizə səs verdilər.

Bax, məhz bu əsnada Lətif Kərimovun irsi kəşfləri dadımıza çatdı, bir tərəfdən də respublika xalçaçılıq muzeyi əməkdaşlarının, mərhum rəssam Kamil Əliyevin misilsiz fəaliyyəti bəhrəsini verdi. Diasporanı da, hətta diplomatları belə, ayağa qaldırmaq lazım gəldi. Bu sahədə də dadımıza həmişə azərbaycanlı olması ilə fəxr edən, vətənpərvərliyi dillər əzbəri olan Heydər Əliyevin layiqli davamçısı, prezidentimiz İlham Əlieyv çatdı. Və nəhayət, gərgin zəhmət triumf ilə başa çatdı! Bütün sivil dünyanın qarşısında nüfuzlu beynəlxalq təşkilat, bəşər mədəniyyətini bir misilsiz xəzinəsinin üzərinə millətimizin möhürünü vurdu. "Qədim Azərbaycan xalçasının bir parçası tərəziyə qoyulsa, o, bütün italyan intibahından ağır gələcək" - vaxtilə bir romalı alimin dediyi bu sözləri YUNESKO kimi təşkilat təsdiq edəndə niyə də sevinməyək.

Təəssüflər olsun ki, bütün bunların əhəmiyyətini dərk edə bilməyib, Mehriban Əliyevanın uğurlarına kölgə salmaq istəyən cahillər. hələ də aramızda var.

XX əsrdə sovet hakimiyyəti dövründə milli musiqimizi xaricdə nə az, nə çox 40 ilə qədər 3 nəfər - Rəşid Behbudov, Habil Əliyev, Zeynəb Xanlarova şərəflə təmsil ediblər. Bunların sayəsində dünya bizim milli vokal və instrumental ifaçılıq sənətimizlə yaxından tanış olub. Son 10 ildə isə bu nəcib estafeti təkrarsız Alim Qasımov davam etdirib. Muğam - Üzeyir bəyin tədrici ilə desək bu möhtəşəm musiqi barigahının üzərindən baxanda, bir tərəfdə qədim Dehlini, digər tərəfdə isə sehrli Əndəlusu, Kardova xilafətini görürük. Muğam - Sasani şahənşahlarının, Arran mərzbanlarının, Dİməşq, Bağdad xəlifələrinin, Osmanlının zəhmli sultanlarının saraylarına rövnəq vermiş sənət! Muğam - tarixi, nəzəriyyəsi Ürməvilər, Fərabilər, Marağilər, Əmir Xosrov Dəhləvilər tərəfindən yazılmış və tədqiq olunmuş müsiqi dəfinəsi! Muğam - ərşi-səmavatdan bizə nazil edilmiş sərvət. Muğam - məni özümə tanıdan ulu sənət! Muğam - məni sınmağa, əzilməyə qoymayan əzəmətli simfoniya! Nə qədər ki, bu cəfakeş torpağın üzərində "Mənsuriyyə", "Heyratı", "Heydəri" dalğa-dalğa qalxırsa, deməк bu xalqa ölüm yoxdur.



Mənfur erməni faşistləri torpaq bir yana qalsın, artıq milli mətbəximizə, klassik musiqimizə murdar əllərini uzdanda, yenə də əvvəlki situasiya təkrarlandı. Yenə də həmişəki kimi yuxarıdan direktiv gözləyən məmurların, "Allahdan buyurq, ağzıma quyruq" deyən titullu sənət adamlarının eyni sözlərini eşidirik: "Nə isə etmək lazımdır...", "Müəyyən addımlar (?) atılacaq...", "Danışıqlar gedir..." və ilaxır.

Son 15 ildə milli musiqimizə dəyən zərbə, bəlkə min il ərzində dəyməmişdi. Qısa müddət ərzində efir və telekanallar toyxana dəllalarının, pozğunların cövləngahına çevrildi. Neçə minillik mənəvi mədəniyyət dollarlara qurban verildi. Ən dəşətlisi də budur ki, fəsad heç bir müqavimət görmədən yenə də davam edir. Avropanın, Amerikanın kübarları Alim sənətini ayaqn üstə alqışladıqları halda, biz burada uşaqlarımızı elit şou-biznes əxlaqsızlarının ümidinə buraxmışdıq. Həyasızlıq o yerə çatmışdı ki, millətin sənət məbədinə, onun klassik irsinə - muğamına belə əl qaldırmağa cürət edənlər də tapıldı. Habil Əliyev kimi musiqi patriarxının "uşaqlarınızı bu mədəniyyətdən qoruyun!" çağırışına məhəl qoyan tapılmadı.

Mənəviyyatımızın, mədəniyyətimizin məhz belə bir məqamında, məmləkətin birinci xanımı Mehriban Əliyevanın əsil ziyalı, əsl siyasi-ictimai xadim iradəsi özünü göstərdi. Hörmətli xanımın titullarını sadalamıram, çünki o, nəcib fəaliyyəti ilə sübut etdi ki, bütün bunlardan qat-qat yüksəkdə durur.

Əvvəlcə bütün tanınmış ifaçılara, sənət adamlarına yüksək prezident təqaüdü verildi. Tarixmizdə indiyə qədər hansı xanəndə qoca yaşında belə məbləğ almışdı. Tədricən qeyrətli adamların əlləri ilə proqramlara əl gəzdirildi, (düzdür, bu iş hələ axıra çatdırılmayıb), klassik irsin ifaçıları ön plana çəkildilər. Ölkənin mədəni mühitində ab-hava dəyişikliyə üz qoyan kimi, fəaliyyəti bizim fəxarət mənbəyi olmuş Mehriban xanım Əliyeva ikinci mədəni hücumu hazırladı. Bu zarafat deyildi, qarşıda musiqi tarixi əsrlərin zülmətində itmiş Hindistan (bizim muğamı xatırladan qədim raqlar, "Xəyal" məktəbi, Dəhləvi irsi və s.) incəsənətdə Şərq üçün əsrlər boyu müəllimlik etmiş İran, özbəklərin "şeşməqom"u, bütün ərəb dünyası və nəhayət ermənipərəst səlib dövlətlərinin sənətşünasları durmuşdular. Hər hansı dövlət başçısına əbədi şöhrət gətirə bilən fəaliyyət bu dəfə də triumfla nəticələndi. İndiyə qədər bütün Şərq, Türk-İslam dünyasının şərikli malı hesab edilmiş mübarək muğamın üzərinə də millətimin möhürü vuruldu. Kim nə deyir qoy desin, şəxsən mən bu olaydan sonra qürur hissi ilə deyirəm: Belə ictimai xadimlə bir dövrdə yaşadığıma görə fəxr edirəm, ona dərin minnətdarlıq hissi ilə "Halal olsun!" söyləyirəm. Ölkədə isə keçirilən muğam müsabiqələri milli mədəniyyəti, əcdadların irsi üçün narahatlıq keçirənlərin qəddini dikəltdi. Xalq dağ çeşməsi tək pak, billur kimi təmiz qaynaqlara üz tutdu. Onu eşitdik ki, dünyanın hər yerindən soydaşlarımızın göndərdikləri sevinc, fəxarət dolu məktublarının ardı-arası kəsilmir. İkinci müsabiqə zamanı isə R.Behbudov adına mahnı teatrı dünya Azərbaycanlılarının əsl musiqi məbədinə döndü. Mən burada baş verənlərdən danışmıram, nə qədər çalışsam da hadisələri olduğu kimi canlandıra bilməyəcəyəm.

Amma yenə də məqaləmin sonluğu üçün nəsə deməyə məcburam. Filarmoniyadakı son konsert, daha doğrusu final, milli mədəniyyətimizin təntənəsi, onun apefeozu idi. Dəqiq bilirəm ki, nəinki mən, neçə-neçə musiqi xaridarı bu konsertə sevincdən göz yaşı axıda-axıda qulaq asıb. Bu konsert bir daha sübut etdi ki muğam Allah-təala dərgahında nazil

edilmiş misli-manəndi tapılmayan sənət incisinidir. "Mənsuriyyə", "Heyratı" kimi qalibiyyət təranələrindən sonra milli himnin sonda səslənməsi tamam başqa aləm idi. Yaş dolu gözlərimlə dinləyicilərə baxırdım. İlahi, soydaşlarım necə də dəyişilmişdilər, gözlərdə, üzlərdə nur ələnirdi, belə ülvi anlarda insan necə də gözəlləşərmiş...

Məqaləmi qocaman sənətkar muğam bilicisi Əlibaba Məmmədovun mərhamanə sözləri ilə bitirməyi özümə şərəf bilirəm, hörmətli xanımımız, Allah sizi bu torpağa, bu xalqa çox görməsin! Amin!



# MİLLİ VƏ BƏŞƏRİ DƏYƏRLƏRİN, HUMANİZM PRİNSİPLƏRİNİN MÜCƏSSƏMƏSİ



***Zöhrə SADIQOVA***
***7 saylı məktəbin Şagird Parlamentinin sədri***

Azərbaycan Respublikasının uğurlu daxili və xarici siyasəti, region ölkələri sırasında həlledici söz sahbi olması, iqtisadi - sosial inkişaf və s. müsbət meyllər dünya dövlətlərini heyrətləndirməkdədir. Bəli, artıq neçə illərdir ki, Azərbaycanda siyasi sabitlik hökm sürür, əhalinin maddi rifah halı yaxşılaşır və demokratik dəyərlər dönmədən inkişaf etdirilir. İnsan hüquqlarının qorunması sahəsində, Avropa məkanına inteqrasiya məsələlərində ciddi uğurlara imza atılıb.

Təsadüfi deyildir ki, ölkəmizin Avropa Şurası və Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatları ilə münasibətləri gün-gündən yaxşılaşır. Bütün bunlar isə ümummilli liderimiz Heydər Əliyevin qoyub getdiyi irsi böyük uğurla davam etdirən cənab İlham Əliyevin işgüzarlığı, tükənməz enerjisi və siyasi peşəkarlığı sayəsində mümkün olmuşdur.

Azərbaycanın hərbi qüdrətinin artması, Milli Ordunun maddi-texniki və hərbi qabiliyyətinin gücləndirilməsi isə erməni işğalı altında olan torpaqlarımızın azad edilməsi imkanlarını xeyli artırmışdır. Son zamanlar bu istiqamətdə gedən danışıqlarda müsbət meyllərin müşahidə olunması da məhz İlham Əliyevin həyata keçirdiyi siyasətin doğru olmasından xəbər verir.

Ölkəmizin sürətlə çiçəklənməsində, iqtisadi, siyasi və mədəni cəhətdən, yüksələn xətlə inkişafından danışarkən bir nəfərin adını da çəkmək yerinə düşərdi. O da millət vəkili, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır. Mehriban xanımın qısa müddət ərzində nail olduğu uğurların hamısını sadalasaq, çox böyük bir siyahı alınar. Fikrimizcə, buna heç ehtiyac da yoxdur. Çünki artıq bu gün uşaqdan böyüyə kimi



hər kəs Azərbaycan cəmiyyətində, həmçinin onun sərhədlərindən çox-çox uzaqlarda Mehriban xanımın gördüyü işlərdən xəbərdardır. Onun qazandığı beynəlxalq mükafatlar, fəxri adlar, ən başlıcası isə xalqın sonsuz minnətdarlıq hissləri də bunu aydın şəkildə nümayiş etdirir.

Mehriban xanım Əliyeva daha çox uşaqların sevimlisinə və dostudur. Çünki onun fəaliyyətinin böyük bir hissəsi məhz uşaqlarla bağlıdır. Ölkənin birinci xanımını çox tez-tez məktəblərdə, uşaq evləri və internatlarda, uşaq bağçalarında görmək mümkündür. Bu gün Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev fondu təkcə paytaxt Bakıda deyil, "Regionların sosial-iqtisadi inkişafı - Dövlət proqramı" çərçivəsində rayonlarımızda, ən ucqar kəndlərimizdə belə bağça, mədəni-maarif müəssələri, xəstəxanalar, polklinikalar tikir, bərpa işləri həyata keçirir. Demək olar bütün rayonlarımızda ən müasir standartlara cavab verən ümumtəhsil məktəbləri tikilmiş, təmirə ehtiyacı olanlar isə fondun vəsaiti hesabına yenidən qurularaq şagirdlərin istifadəsinə verilmişdir.

Cəsarətlə deyə bilərik ki, bu gün Mehriban Əliyeva həm də çoxlu sayda köməksiz, imkansız insanların, müalicə-

yə, maddi və mənəvi dəstəyə ehtiyacı olan uşaqların ümüd yerinə, istinadgahına çevrilmişdir. Məhz Mehriban xanımın şəxsi təşəbbüsü ilə bir çox insanlar, o cümlədən uşaqlar xarici ölkələrdə müalicə alıb ikinci həyata qayıtmış, yaxud da bu və ya digər problemini həll edə bilmişdir.

Ümumiyyətlə, ən yüksək və ali keyfiyyətləri özündə birləşdirən Mehriban Əliyevanı mübaliğəsiz olaraq, milli və bəşəri dəyərlərin, humanizm prinsiplərinin mücəssəməsi kimi dəyərləndirmək olar. Bizdən də yalnız Mehriban xanım kimi ulu öndər Heydər Əliyevin məsləhət və tövsiyyələrinə, millətimizin və dövlətimizin adına layiq vətəndaşlar kimi yetişmək qalır.



# TARİXİMİZ SƏRVƏTİMİZDİR: ONU QORUMAQ İSƏ HAMININ BORCUDUR



*Tural CƏFƏROV*
*"Gənc Liderlər" Uşaq Təşkilatının departament rəhbəri, 10 saylı məktəbin şagirdi*

Bədxah qonşularımızın Azərbaycana qarşı işğalçılıq siyasətinə və informasiya müharibəsinə qarşı mübarizə Heydər Əliyev Fondunun rəhbəri, millət vəkili Mehriban Əliyevanın daimi diqqətindədir. Bu işğalın Azərbaycan mədəniyyətinə, onun maddi-mənəvi irsinə qarşı məqsədyönlü şəkildə həyata keçirilən vandalizm siyasəti olmasından və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı məhz bu qəbildən atılan addımlar sırasına daxildir.

Əsərdə müxtəlif vaxtlarda ölkəmizin ərazisində arxeoloji qazıntılar nəticəsində əldə olunmuş maddi-mədəniyyət nümunələri xatırladılır, dünyanın ən qədim insan məskənlərindən olan Azərbaycan ərazisində meydana gəlmiş erkən sivilizasiyadan və əcdadlarımızın yaratdığı rəngarəng memarlıq abidələrindən söhbət açılır. Burada həmçinin xalqımızın qədim dövlətçilik ənənələri barədə məlumat verilir, ötən nəsillərin hər birinin mədəni irsimizdə özünəməxsus payı olduğu vurğulanır.

Kitaba işğal olunmuş rayonlarımızdakı mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarix və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar da əlavə olunmuşdur.

Lakin bu kitab Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanım Əliyevanın mədəni irsimizin qorunub saxlanması və təbliği istiqamətində gördüyü yeganə iş deyildir. Fondun Moskva nümayəndiliyi və nümayəndiliyin rəhbəri Leyla Əliyeva Rusiyada yaşayan azərbaycanlılarla birgə mədəni irsimizin bu ölkədə təbliği ilə bağlı çox mühüm işlər həyata keçirir. Bundan əlavə son illər milli sərvətlərimizdən olan muğam sənəti, xalq musiqisi ilə bağlı müsabiqələr təşkil edilmiş və muğam sənətindən bəhs edən çox möhtəşəm nəşrlər işıq üzü görmüşdür. Bu sahələr üzrə gənc istedadlar müəyyənləşdirilb, dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuşdur.

Ölkəmizin ərazisində tarixin müxtəlif dövrlərini əhatə edən tarixi abidələrin siyahısı hazırlanmış, onların bərpası və qorunması dövlət səviyyəsində təmin edilmişdir. "Azərbaycan Mədəniyyətinin Dostları" Fondunun xətti ilə də bu istiqamətdə həm ölkəmizdə və xaricdə ciddi tədbirlər həyata keçirilməkdədir.

Bütün bunlar isə Azərbaycanın bir dövlət kimi dünyada imicinin artmasında, mövqelərinin möhkəmlənməsində, ən başlıcası isə bədnam erməni təbliğatına qarşı mübarizə aparılmasında çox mühüm əhəmiyyətə malikdir. Çünki Dağlıq Qarabağ məsələsi ilə əlaqədar illərdən bəri ayaq açıb yeriyən erməni yalanları tədricən faş olunduqca, onlar həyasızcasına yeni vasitələrə əl atır, Azərbaycanın tarixi abidələrini, toponimlərini, mədəniyyətimizin ən nadir incilərini, hətta bu mədəniyyət incilərini yaradan dahi şəxsiyyətləri də "özününküləşdirməyə" cəhd göstərirlər. Yaxın zamanlarda Moskvada "Yeni Naxçıvan" adlı kilsə tikməklə bağlı bədnam qonşularımızın

riyakar planı da məhz bu qəbildəndir.

Bu mənada Heydər Əliyev Fondunun, onun rəhbəri Mehriban xanım Əliyevanın fəaliyyəti ən xoş sözlərə və alqışa layiqdir. Biz ona Azərbaycanın xoşbəxt hər an gələcəyi naminə uğurlar arzulayır və dəstək olduğumuzu bildirirk.



## ÜRƏYİNİ MƏŞƏLƏ ÇEVİRƏN İNSAN



***Etibar HÜSEYNOV***
***Bakı Məktəbliləri Parlamentinin Hüquq komissiyasının sədri, 7 saylı məktəbin şagirdi***

"Həyatda hər kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax budur bizim həyatımız". Bu sözlər Heydər Əliyev Fondunun prezidenti, Millət vəkili, YUNESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevaya məxsusdur. Çox yerində və doğru-düzgün deyilmiş sözlərdir.

Azərbaycan tarixində dərin izlər bu-

raxmış, öz sözü, əməli və müxtəlif sferalarda fəaliyyəti ilə zirvələr fəth edən xanımlarımızın sırasında diplomatlar, sərkərdələr, qəhrəmanlar, elm və mədəniyyət xadimləri çox olub və sevindirici haldır ki, bu ənənə, varislik prinsipi bu gün də davam edir. Belə ki, çağdaş Azərbaycanda Mehriban xanım Əliyeva qısa zaman kəsiyində müdrikliyi, nəcib əməlləri, insansevərliyi və xeyriyyəçilik fəaliyyəti ilə qəlbləri fəth etmiş, saysız-hesabsız insanların ümüd çırağına, güman nöqtəsinə çevrilmişdir.

...Adama elə gəlir ki, sanki o, dünyaya yalnız qurub-yaratmaq üçün gəlmiş və formalaşmışdır. Heydər Əliyev Fonduna rəhbərlik etdiyi gündən bu günə kimi o, saysız-hesabsız xeyriyyə tədbirləri həyata keçirmişdir. Özü də bu tədbirlər təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da geniş vüsət almışdır. Rusiyada, Gürcüstanda, Rumıniyada, Türkiyədə və başqa ölkələrdə həyata keçirilən aksiyalar həm yerli, həm də ki dünya ictimaiyyəti tərəfindən müsbət qarşılanır və alqışlanır. Əlbəttə ki, öz səmimiyyətini və geniş ürəyini dünya xalqları ilə bölüşən belə bir şəxsiyyət hər cür alqışa layiqdir...

Təsadüfi deyil ki, qloballaşan dünyamızda bəşəri əhəmiyyətli xidmətlərinə görə o, Azərbaycanın və dünyanın bir sıra böyük mükafatlarına layiq görülüb. Həmin mükafatları isə saymaqla qurtarmaq olmaz. Mehriban xanım Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS şirkətlər Qrupu tərəfindən ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, geniş miqyaslı xeyriyyəçilik fəaliyyətinə görə "2005-ci ilin adamı" elan edilmişdir.

Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Mehriban xanım Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmləndirilməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın xüsusi mükafatına, geniş miqyaslı xeyriyyəçilik fəaliyyətinə görə isə "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni və "Qızıl Ürək" Beynəlxalq mükafatlarına layiq görülmüşdür. Lakin YUNESKO və İSESKO-nun xoşməramlı səfirinin ən böyük qazancı və mükafatı xalqının ona olan tükənməz sevgisi və məhəbbətidir.

Bu gün çoxşaxəli və uğurlu fəaliyyəti nəticəsində Mehriban Əliyeva nəinki vətənində, Şərqdə və Qərbdə, inkişaf etmiş Avropa ölkələrində, ABŞ-da da tanınır və sevilir. YUNESKO-nun 41, İSESKO-nun 51 xoşməramlı səfirindən biri olan Mehriban xanım Əliyeva beynəlxalq aləmdə humanist fəaliyyətinə görə hətta M.Rastropoviç, K.Kardinal, L.Məryəm, V.Adamkus, Tereza Ana kimi insanlarla müqayisə edilir. Əlbəttə bu, Azərbaycan xalqı üçün olduqca sevindirici haldır. İngiltərədə dərc olunan nüfuzlu "The Times" qəzetinin 2007-ci ildə apardığı sorğunun nəticələrinə görə, Eleanora Ruzvelt, Hillari Klinton kimi qadınlarla bərabər Mehriban xanım Əliyevanın ən tanınmış 5 fəal birinci xanım siyahısına daxil edilməsi də buna bir daha sübutdur. Əlbəttə ki, ən əsas və ən böyük mükafat xalqın verdiyi qiymətdir. Fikrimcə, Mehriban xanımın da ən böyük mükafatı onun xalqın sevimlisi, biz uşaqların dostu olmasıdır.

Azərbaycanın xoşbəxt gələcəyi naminə Mehriban xanım Əliyevaya uğurlar arzulayır və "o gün olsun ki, gördüyünüz bu xeyirxah işləri Qarabağda - Şuşada, Xankəndində, Laçında, Gəlbəcərdə, Ağdamda və s. rayonlarda davam etdirəsiniz" deyirik. Ulu tanrı sizə yar olsun!



# UŞAQLARIN DOSTU OLMAQ HEÇ DƏ ASAN DEYİL



***Yalçın HACIYEV***
***Bakı Məktəbliləri Parlamentinin Təhsil komissiyasının sədri, 47 saylı məktəbin şagirdi***

XII əsrində dahi Azərbaycan mütəffəkkiri və şairi Nizami Gəncəvi demişdir:

***Qüvvət elmdədir, başqa cür heç kəs,***
***Heç kəsə üstünlük eyləyə bilməz.***
***Bir elmi öyrənmək istədikdə sən,***
***Çalış ki, hər şeyi kamil biləsən.***

Bu fikir eyni zamanda İslam dünyasının müqəddəs kitabı olan "Qurani-Kərimdə" Məhəmməd Peyğəmbər tərəfindən də qeyd olunmuşdur: "Hər bir insan beşikdən qəbr evinədək elm öyrənməlidir".

Bəşəriyyət XX əsrdə elmi və texniki inqilab dövrünə daxil olmuşdur. Deməli, hər bir millətin inkişafı, dövlətçiliyinin möhkəmlənməsi, iqtisadi tərəqqisi heç şübhəsiz ki, elmdən asılıdır. Elm isə təhsildən başlanır. Bir ölkədə təhsil nə qədər güclü olsa, onun elmi potensialı da bir o qədər möhtəşəm olar.

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, hansı ölkədə ki, təhsilin səviyyəsi yüksəkdir, o ölkənin iqtisadiyyatı, mədəniyyəti və sosial durumu gün-gündən irəliyə doğru gedir. Elə bu səbəbdəndir ki, YUNESCO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyeva Azərbaycanda təhsilin inkişafına çox böyük diqqət və qayğı ilə yanaşır.

Belə ki, onun təşəbbüsü ilə son 2-3 ildə yüzlərlə yeni məktəb binaları tikilmiş, bir çox təmirə ehtiyacı olan təhsil ocaqları isə əsaslı təmir olunmuş və bütün texniki avadanlıqlar, dərs vəsaitləri ilə təmin edilmişdir. Mehriban xanım hətta, respublikamızın ən ucqar rayonlarında təhsilin inkişafına böyük önəm verir, bu yerlərdə yerləşən məktəblərin problemlərini həmişə diqqət mərkəzində saxlayır. Son bir neçə ildə Lerik, Yardımlı, Quba və s. rayonlarda təhsil sahəsində görülən böyük quruculuq işləri deyilənlərə əyani sübutdur.



Mehriban xanım məktəblilər qarşısındakı çıxışlarında dönə-dönə vurğulayır ki, Azərbaycanın gələcəyi biz gənclərdən, aldığımız təhsildən asılıdır: "Siz gənclərdən tələb olunur ki, elmi biliklərə dərindən yiyələnib, ölkəmizin iqtisadiyyatı, mədəniyyəti və sosial həyatı üçün hazırlıqlı kadrlar kimi yetişəsiniz. Biz isə bunun üçün sizə lazım olan bütün şəraiti yaratmaq, təhsildə uğurlar qazanmaq üçün bütün addımları atmağa hazırıq".

Mehriban Əliyeva tez-tez uşaq bağçaları, körpələr evi və internat məktəblərinə baş çəkir, onların problemləri ilə maraqlanır, lazımi köməklik göstərir. Onun fəaliyyətinə az da olsa bələd olan hər kəs təsdiq edər ki, M.Əliyeva fəaliyyətində atdığı bütün xeyirxah addımlarda dahi lider Heydər Əliyevin qoyduğu ənənəni davam etdirir. Çünki Azərbaycanda təhsilin möhkəm təməlini məhz Heydər Əliyev qoymuşdur. O, respublikamızda təhsilin inkişafı, təhsil işçilərinin sosial durumunun yaxşılaşdırılması üçün əlindən gələni edirdi. Sevindirici haldır ki, bu gün onun adını daşıyan fond və qısa zamanda Azərbaycanın ictimai-siyasi həyatında özünü təsdiqləmiş rəhbəri - Mehriban Əliyeva bütün uşaqların dostuna çevrilmişdir. Uşaqların dostu olmaq isə heç də asan deyil...

# MƏDƏNİYYƏTİMİZİN XİLASKARI



*Tural ƏLİYEV*
*"Gənc Liderlər" Uşaq Təşkilatının departament rəhbəri, 158 saylı məktəbin şagirdi*

Azərbaycan qədim zamanlardan etibarən bəşər sivilizasiyasının mərkəzlərindən və mədəniyyət ocaqlarından biri olmuşdur. Tarixə ekskursiya etsək görərik ki, xalqımız dünyanın hələ yeni-yeni mənimsəməyə başladığı mədəni-mənəvi dəyərlərə min illər öncə malik olmuş, təkrarolunmaz özəllikləri və xüsusiyyətləri ilə seçilmişdir. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisinin işğallara məruz qalması, yabançı mədəniyyətlərin təsiri altına düşməsi də mənəviyyatımızı və mentalitetimizi dəyişə, onu öz tarixi köklərindən ayıra bilməmişdir. Bununla belə, həmin işğallar və basqılar təsirsiz də ötüşməmişdir. Ayrı-ayrı həyat sahələrinə, xüsusilə də mədəniyyətimizə yabançı ünsürlərin nüfuzu bu istiqamətdə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini vacib etmişdi. 1991-ci ildə Respublikamızın yenidən öz dövlət müstəqilliyinə qovuşmasından, xüsusilə 1993-cü ildən sonra görülən tədbirlər, həyata keçirilən islahatlar gözlənilən təhlükəni neytrallaşdırmağa imkan verdi. Və bu işdə 2004-ci ildə yaradılmış Heydər Əliyev Fondunun fəaliyyəti əvəzsiz rol oynadı.

Azərbaycanın ictimai-siyasi həyatına milli-mənəvi dəyərlərimizin müdafiəçisi, hamisi kimi daxil olan bu fondun və onun prezidenti, millət vəkili Mehriban Əliyevanın qısa zaman kəsiyində apardığı çoxşaxəli fəaliyyəti mədəniyyətimizi nəinki yad ünsürlərin təsirindən hifz etdi, həmçinin onu yenidən dünyanın ən inkişaf etmiş və mükəmməl mədəniyyətləri sırasına daxil olmasına imkan yaratdı.

Mehriban xanımın fəaliyyətə başladığı elə ilk günlərdə "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nu təsis etməsi onun gələcəyə hesablanmış fəaliyyətindən və tarixin dərin qatlarından süzülüb gələn milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq istəyindən xəbər verirdi. Son illər onun təşəbbüsü ilə muğam müsabiqələrinin təşkili, bu xalq sə-

nətini yaşadan insanlara ən yüksək səviyyədə qayğı, müxtəlif tarixi dövrlərin yadigarı olan abidələrimizin qorunması və s. YUNESKO-nun "Xoş məramlı səfiri"nin qısa zamanda gördüyü işlərin yalnız bir hissəsidir.

Azərbaycan mədəniyyətinin dirçəlişi və tərəqqisini istəyən hər bir vətəndaş təsdiq edə bilər ki, buna qədər istər muğam sənətinə, istər tarixi abidələrimizə, istərsə də digər maddi-mənəvi sərvətlərimizə münasibət başqa idi. Qloballaşma pərdəsi altında mənəviyyatımıza yad və bayağı müsiqi janrları, mentalitetimizdən uzaq seriallar və s. nüfuz etməyə başlamışdı ki, bu da ölkəmizin və xalqımızın məkrli düşmənlərinin məqsədyönlü siyasəti nəticəsində baş verirdi. Bəzi insanların, xüsusilə də gənclərin asanlıqla yabançı ünsürlərin təsiri altına düşmək təhlükəsi yaranmışdı. Obrazlı şəkildə desək, Mehriban Əliyeva Azərbaycan muğamını ehya etdi, Azərbaycan mədəniyyətini gözlənilən təsir və təhlükədən hifz etdi.

Bir şagird olaraq mən məhz Mehriban Əliyevanın mədəniyyətimizin qorunması və təbliği istiqamətində göstərdiyi əməli fəaliyyətdən sonra Azərbaycan muğamı, Qız qalası, Şirvanşahlar sarayı, Qobustan qədim insan yaşayış



məskəni və digər milli-mənəvi yadigarlarımız haqqında dolğun məlumat almışam. Məhz Mehriban xanımın əməli fəaliyyətinin nəticəsidir ki, bu gün bir neçə abidəmiz YUNESCO tərəfindən qorunan abidələr siyahısına daxil edilmişdir.

Bir sözlə, Mehriban Əliyeva artıq özünü Azərbaycan mədəniyyətinin hamisi və xilaskarı kimi təsdiq edə bilib. Lakin onun görəcəyi və görəmək istədiyi işlər hələ çoxdur. Bu yolda ona uğurlar arzulayır və bildiririk ki, biz uşaqlar hər zaman ona dəstək olacağıq.

# BÖYÜK YOLUN BAŞLANĞICI



*Könül ƏKBƏROVA*
*7 saylı məktəbin şagirdi*

Ölkə prezidentinin xanımı, millət vəkili Mehriban Əliyevanın ictimai həyatımızdakı rolu böyükdür. O, Azərbaycan cəmiyyətində uşaq və gənclərin dövlətini və xalqını sevən layiqli övladlar kimi böyüməsi istiqamətində gücünü və səylərini əsirgəmir.

Fəal ictimai-siyasi fəaliyyətə qoşulduğu qısa müddət ərzində Mehriban xanım çox işlər görüb və çox uğurlara imza atıb. Və bu gün biz həmin işlərin konkret nəticələri haqqında iftixarla danışa bilərik.

Götürək elə təhsil sahəsini. Heydər Əliyev Fondunun təşəbbüsü və bilavasitə dəstəyi ilə 2005-ci ildə ölkəmizdə 132, 2006-cı ildə isə 60 yeni məktəb binası inşa olunub. İndi ən ucqar kənd məktəblərində də uşaqlar təmiz, yeni, müasir, işıqlı məktəblərdə təhsil almaq imkanı qazanmışdır. Bundan əlavə, çoxlu sayda uşaq bağçalarında və internat evlərində əsaslı təmir işləri aparılmış və yeniləri istifadəyə verilmişdir. Eyni fikirləri səhiyyə müəssisələri, uşaq müalicə və bərpa mərkəzləri, həmçinin digər təyinatlı tibb ocaqları haqqında da demək olar.

Fikrimizcə, bütün bu müvəffəqiyyətlərin kökündə bir neçə amil dayanır: siyasi sabitlik, davamlı iqtisadi inkişaf və nəhayət təşəbbüskarlıq. Bu gün ölkəmizdə bunların hər biri üçün münbit şərait yaradılmışdır. Belə ki, artıq Azərbaycanda qanunun aliliyi təmin olunmuş əsil vətəndaş cəmiyyəti formalaşmışdır. Regionların sosial-iqtisadi inkişafını gücləndirmək haqqında dövlət proqramına uyğun olaraq ölkəmizin hər yerində, ən ucqar dağ kəndlərində belə yeni iqtisadi layihələr həyata keçirilir, məktəblər, xəstəxanalar, kitabxanalar və muzeylər istifadəyə verilir, əhalinin qaz, işıq və su təminatı yaxşılaşdırılır, yeni iş yerləri açılır və s. Bu sıraya mədəniyyət quruculuğu, mədəni irsimizin qorunması, idman və idman quruculuğu sahəsin-

də görülən işləri də əlavə etsək, böyük bir siyahı alarıq.

Bütün bu işlərdə dövlət başçısı İlham Əliyev cənabları ilə bərabər Mehriban xanımın da xidmətləri böyükdür. Lakin Azərbaycan Mədəniyyətinin Dostları Fondu, Bədii Gimnastika Federasiyasının rəhbəri, YUNESKO-nun xoş məramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti və millət vəkili üçün bütün bunlar böyük yolun yalnız başlanğıcıdır. Mehriban xanımın ürəyində xalqımız, dövlətimiz və xüsusilə də bu dövlətin gələcək qurucuları olacaq uşaqlar üçün həyata keçirmək istədiyi çox istəkləri, çox arzuları var. Bizdən isə bu yolda ölkəmizin birinci xanımına yalnız "UĞUR OLSUN" demək qalır.



## AZƏRBAYCAN MUĞAMININ İKİNCİ NƏFƏSİ



*Elza İSGƏNDƏRLİ*
***59 saylı məktəbin Şagird Parlamentinin sədri***

***Daş ürəklərdə yanıb, daşları sındırdı muğam,***
***Haqqa düşmən olanı haqqa tapındırdı muğam,***
***Nə güman eyləmisən ondakı tilsimləri sən?***
***Kürü ahıyla qurutdu, salı yandırdı muğam,***
***Onun hər güşəsi bir xatirə, bir canlı kitab,***
***Keçilən yolları hərdən bizə andırdı muğam.***

...Şair Bəxtiyar Vahabzadənin Azərbaycan xalqının milli-mənəvi hisslərindən doğan bu misraları nə qədər də gözəl və cazibədardır. Çünki, Azərbaycan muğamı - dünya müsiqisi xəzinəsinin ən qiymətli və nadir incilərindəndir. Baxmayaraq ki, XX əsrin sonlarından etibarən yetişməkdə olan Azərbaycan

gəncliyi muğamın mahiyyətini başa düşmür, bayağı və yabançı xarici musiqilərə daha çox üstünlük verir, milli-mənəvi dəyərlərimizin ayrılmaz parçası olan muğamı unutmağa başlamışdılar.

Lakin şükürlər olsun ki, bu durğunluq dövrü uzun sürmədi. Azərbaycan Milli Məclisinin deputatı, YUNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində bu gün muğam dünya mədəniyyətinin bəşəri əhəmiyyətli sənət abidələri sırasına daxil edilmişdir. Məhz onun sayəsində Azərbaycan muğamları obrazlı desək, yenidən həyata vəsiqə qazanmış və geniş miqyasda təbliğ edilərək əvvvəlki şöhrətini qaytarmağa başlamışdır.

Son bir neçə ildə müğam musiqisi ilə bağlı Heydər Əliyev Fondunun təşəbbüsü ilə müsabiqələr keçirilmiş, kitablar çap olunmuş, muğam diskləri xarici dillərə çevrilərək bütün dünyaya yayılmışdır. Bu təbliğat isə biz gəncləri ruhlandırır və sanki erməni təcavüzkarları tərəfindən işğal olunmuş əraziləri azad etməyə, mənfur düşmən üzərində qələbəyə səsləyir.

Muğam Azərbaycan xalqının qüdrəti, ilham mənbəyidir. Təsadüfi deyil ki, vaxtilə dahi bəstəkar Üzeyir Hacıbəyov muğamlarımızın bədii-emosional məzmunundan və xarakterindən danışarkən deyirdi ki, "Çahargah" muğamı həyacan hissi oyadır. Şair Mir Möhsun Nəvvab onu göy gurultusu, görkəmli tarzən Əhməd Bakıxanov isə müharibə, döyüş meydanı ilə müqayisə edirdi.

XX əsr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi Mir Cəlal Paşayev "Vətən yaraları" adlı əsərində "Çahargah"ın qələbəyə inam yaratmaq, vətənpərvərlik hissələri alovlandırmaq və qəhrəmanlığa çağırış kimi səslənməsindən bəhs edərək, döyüşən əsgərin dili ilə deyirdi: "... Bir "Çahargah" başla... İnan ki, üstümə yüz topdan güllə yağsa da, mən burada o "Çahargah"ın səsini eşidəcəyəm".

"Çahargah" muğamı doğrudan da qəhrəmanlıq və mübarizlik əhval-rühiyyəli, dramatik məzmunlu, eyni zamanda lirik, həzin və ahəstə melodiyaları ilə dinləyicini təsirləndirən bir dəstkahdır. Xalq şairi Bəxtiyar Vahabzadə "Muğam" poemasında "Çahargah" muğamının bütün şöbələrindən söz açır, musiqinin ifadə etdiyi dərin mənaları sözlərin köməyi ilə ipə-sapa düzüb məharətlə oxucunun diqqətinə çatdırır.

Eyni fikirləri digər muğamlarımız haqqında da söyləmək olar. Onların hər birində xalqımızın fitri istedadı, milli

mənliyi, tarixi, ədəbiyyatı, xarici düşmənlərə qarşı apardığı qəhrəmanlıq mübarizəsi və digər milli-mənəvi dəyərlər özünü əks etdirir.

Bütün bunların geniş kütlə arasında yayılması isə yuxarıda qeyd etdiyimiz kimi, respublikamızın birinici xanımı M.Əliyevanın təşəbbüsünün və əməli fəaliyyətinin nəticəsidir. Onun muğamlarımızın qorunması və təbliği istiqamətində göstərdiyi xidmətlər böyük sevinc və eyni zamanda qürur hissi oyadır. Xüsusilə indiki tarixi şəraitdə - qloballaşma, mədəniyyətlərin inteqrasiyası və qaynayıb-qarışması şəraitində bizə tarixi köklər üzərində möhkəmlənmək heç zaman olmadığı qədər vacibdir. Odur ki, bütün Azərbaycan uşaqları adından ölkəmizin birinci xanımı Mehriban Əliyevaya "SAĞ OLUN" deyir, hər zaman ona dəstək verməyə hazır olduğumuzu bildiririk.



# UŞAQLARA QAYĞI, GƏLƏCƏYİMİZƏ QAYĞIDIR



***Ləman DADAYEVA***
***Bakı Məktəbliləri Parlamentinin Mərkəzi İşçi Aparatının sədri, 214 saylı məktəbin şagirdi***

Azərbaycan bəşər tarixinə çox böyük şəxsiyyətlər - görkəmli dövlət xadimləri, alimlər, şair və yazıçılar, sərkərdələr və s. bəxş etmişdir. Ayrı-ayrı dövrlərdə yaşamış Nizami Gəncəvi, Məhəmməd Fizuli, Nəsrəddin Tusi, C.Məmmədquluzadə, M.Ə.Sabir, Səməd Vurğun, Babək, Koroğlu, Şah İsmayıl Xətai, Cavad xan, Məmməd Əmin Rəsulzadə və onlarca başqaları qədim və zəngin tariximizdə dərin izlər buraxmış, dünya mədəniyyətinə çox qiymətli tövhələr vermişlər. Onlar bu gün də dönə-dönə xatırlanır, adları hör-

mət və ehtiramla çəkilir, həyat və fəaliyyətlərinə cilid-cilid əsərlər həsr olunur.

Adı tarix səhifələrinə qızıl hərflərlə yazmış belə şəxsiyyətlərdən çağdaş Azərbaycanın dünya siyasət sənətinə bəxş etdiyi nadir simalardan biri də H.Əliyevdir. Bu gün dünya xalqları ailəsində özünəməxsus yeri və mövqeyi olan Müstəqil Azərbaycan Respublikası məhz H.Əliyevin xalqımıza qoyub getdiyi ən böyük sərvətdir. Daha sevindirici hal ondan ibarətdir ki, ölkəmiz bu dahi insanın yolu ilə getdikcə daha inamla irəliləyir və gənc przident İlham Əliyevin rəhbərliyi altında siyasi həyatda, iqtisadiyyatda və mədəniyyətdə yeni-yeni uğurlar əldə edir.

Azərbaycanın dünya miqyasında tanınmasında bir insanın da misilsiz xidmətləri vardır. O insan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoş məramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevadır. İctimai-siyasi fəaliyyətə yenicə başlamasına baxmayaraq, bu xanımın səsi artıq dünyanın ən mötəbər tribunalarından, ən möhtəşəm məclislərindən gəlir. İstər ölkə daxilində, istərsə də Azərbaycandan kənarda göstərdiyi müxtəlif istiqamətli fəaliyyətinə görə Mehriban xanımın adı həmişə ehtiramla çəkilir. 2004-cü ildə



yaradılmış Heydər Əliyev Fondunun prezidenti kimi qısa zaman kəsiyində gördüyü işləri xatırlatmaq kifayət edir ki, bu xanımın fəaliyyəti haqqında əyani təsəvvür yaransın. Biz bu gün həmin fəaliyyətin yalnız bir istiqamətindən - uşaqlarla bağlı həyata keçirilən tədbirlər proqramından danışmaq istəyirik.

Mehriban xanım uşaqlara çox böyük diqqət və qayğı göstərir, onların problemlərinə həssaslıqla yanaşır. Onun biləvasitə şəxsi təşəbbüsü ilə valideynlərini itirmiş və valideyn hüquqlarından məhrum olunmuş uşaqların ailə mühitində sağlam inkişafı və cəmiyyətə inteqrasiyası məqsədi ilə xüsusi qanun layihəsi hazırlanmışdır. Həmin layihəyə görə, uşaq evlərindəki, dövlət təlim-tərbiyə müəssisələrindəki uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmləri əksini tapmışdır. Layihənin həyata keçirilməsi yetişməkdə olan nəslin, Azərbaycanın gələcəyi olan uşaqların sağlam mühitdə böyüməsi üçün yaxşı zəmin yaratmaqla bərabər, milli-mənəvi dəyərlərimizin daha yüksək səviyyəyə qaldırılmasında yeni mərhələ ola bilər.

Artıq uşaqlar özlərini tənha, valideyn himayəsindən məhrum olanlar kimi hiss etmirlər. Ailələri olmasa da,

Azərbaycan dövləti, H.Əliyev fondu, şəxsən həmin Fondun prezidenti Mehriban xanım Əliyeva onların xoşbəxt və qayğısız böyüməsi, orta və ali təhsil almaları üçün əlindən gələni əsirgəmir.

H.Əliyev fondunun xətti ilə artıq neçə illərdir ki, yeni məktəblər, xəstəxanalar inşa edilir, müalicəsi ölkəmizdə mümkün olmayan xəstə uşaqlar xaricə müalicəyə göndərilir. Bir sözlə, uşaqlar hər zaman, hər gün, hər saat Mehriban xanımın əməyini və diqqətini hiss edirlər. Odur ki, mən bütün Azərbaycan uşaqları adından ona təşəkkürümü bildirir və xalqımızın xoşbəxt gələcəyi naminə can sağlığı, fəaliyyətində yeni-yeni zirvələr arzulayıram. Mehriban xanımın həyat yolunu özümə örnək bilib, onun kimi büün varlığımla insanların sağlam gələcəyi üçün çalışacağıma söz verirəm.



# MƏNƏVİ VƏ FİZİKİ SAĞLAMLIQ XOŞBƏXT GƏLƏCƏYİN TƏMƏLİDİR



***Ülvi ƏSƏDLİ***
***Bakı Məktəbliləri Parlamentinin İdman Komissiyasının sədri, 47 saylı məktəbin şagirdi***

"Uşaqlar bizim gələcəyimizdir". Bu sözlərin müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. Bəli, həqiqətən bu gün uşaq bağçalarına, müxtəlif təyinatlı təlim-tərbiyə müəssisələrinə, məktəblərə üz tutan uşaqlar sabah ulu öndərin bizlərə qoyub getdiyi Müstəqil Azərbaycan Respublikasının qurucuları, onun ləyaqətli və şərəfli vətəndaşları deməkdir.

Odur ki, ölkəmizin gələcəkdə də siyasi və iqtisadi cəhətdən inkişaf etməsi, dünya birliyində öz layiqli yerini tutması üçün bu günkü uşaqların elmli, savadlı və sağlam böyüməsi əsas şərtdir. Bununçünsə

böyüklər, xeyirxah insanlar, ilk növbədə isə dövlət onlara yardımçı və hami olmalıdırlar.

Bu istiqamətdə fəallığı ilə seçilən, uşaqların hərtərəfli inkişaf etməsində əvəzsiz xidmət göstərən insanlardan biri də Mehriban Əliyevadır: Millət vəkili, YUNESKO-nun xoş məramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyeva. Son bir neçə ildə Mehriban xanım uşaqların təhsil səviyyəsinin yüksəldilməsi, yeni nəslin sağlam böyüməsi, valideyn himayəsindən məhrum olanların ailə şəraitində tərbiyəli yetişməsi üçün misli görünməmiş işlər görmüşdür. O, fiziki və əqli cəhətdən zəif uşaqların cəmiyyətdən təcrid olunmaması, onların cəmiyyətin bərabərhüquqlu vətəndaşları kimi yerlərini tutması üçün hər şeyi etmiş və etməkdədir. Ölkəmizdə uşaq evlərinin yeniləşdirilməsi və müasirləşdirilməsi, kimsəsiz uşaqların daima diqqət mərkəzində olması, zəif və xəstə uşaqların lazım gələrsə müalicə olunmaq üçün xaricə göndərilməsi yuxarıda deyilənlərin əyani sübutudur.

Mehriban xanımın gördüyü bu və bu kimi digər işlər bizləri sevindirməyə, qəlbimizi riqqətə gətirməyə bilməz. Təsadüfi deyil ki, Azərbaycan Gimnastika Federasiyasının rəhbəri və Millət vəkili kimi



uşaqların rifahı üçün çalışan M.Əliyeva qısa zaman kəsiyində bütün uşaqların dostu və sevimlisinə çevrilmişdir.

Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması, Heydər Əliyev Fondu tərəfindən 2005-ci və 2007-ci illərdə muğam müsabiqələrinin keçirilməsi və bu müsabiqələr zamanı Pərvaz, Elməddin kim gələcəyin ustad sənətkarlarının parlaması da məhz Mehriban xanımın xidmətləri kimi dəyərləndirilməlidir. Lakin bir məqamı da qeyd edək ki, həmin müsabiqələr Mehriban Əliyevanın Azərbaycan muğam sənətinin, bütövlükdə isə milli-mənəvi dəyərlərimizin qoruması istiqamətində gördüyü işlərin yalnız bir hissəsidir. Həmin işlər isə saysız-hesabsızdır.

Mehriban xanımın 2002-ci ildə Gimnastika federasiyasının rəhbəri seçilməsindən sonra idmanın bu növünün Azərbaycanda inkişaf etməsi üçün geniş imkanlar açıldı. Cəmi 2 il sonra Avropa çempionatının Bakıda keçirilməsi, Azərbaycan gimnastlarının müxtəlif yaş qrupları üzrə qazandığı böyük uğurlar da bunu təsdiqləyir.

Naxçıvanda, Gəncədə, Sumqayıtda və ölkənin digər bölgələrində müasir tələblərə cavab verən gimnastika zallarının və bölmələrinin açılması da uşaqların idmanla məşğul olması üçün şərait yaradır. Bütün bunlar isə uşaqların layiqli vətəndaş

kimi yetişməsində böyük rol oynayır. Buna görə biz bütün uşaqlar adından Mehriban xanıma minnətdarlıq hisslərimizi ifadə edir və söz veririk ki, onun göstərdiyi qayğının nəticəsi olaraq biz də hər zaman və hər yerdə xalqımıza layiqli övladlar olacağıq.





# HUMANİZMİN VƏ İNSANPƏRVƏRLİYİN TƏCƏSSÜMÜ



*Eyyub BAĞIROV*
***Cəmşid Naxçıvanski adına Hərbi Litseyin kursantı***

Mehriban xanım Əliyevanın çağdaş Azərbaycanın ictimai, siyasi və mədəni həyatında rolu çox böyükdür. Onun yalnız millət vəkili kimi fəaliyyətinə nəzər salsaq, həmin rolun nədən ibarət olduğunu aydın görə bilərik.

Ötən ilin mayında Mehriban xanım Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etdi. Azərbaycan Respublikasının Milli Məclisi Heydər Əliyev Fondu prezidentinin bu təşəbbüsünü dəstəkləyərək, 2007-ci il mayın 8-də

"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar çıxardı. Ölkəmizdə formalaşmış vətəndaş cəmiyyətinin inkişafında növbəti addım olan bu qərar üç ay ərzində həyata keçirilərək, minlərlə insanı azadlığa qovuşdurdu, onların qayıtmasını həsrət və intizarla gözləyən ana-bacıların, övladların, ahıl valideynlərin hədsiz sevincinə səbəb oldu.

Amnistiya aktının icrasının nəticələrinə dair aparılmış ümumiləşdirmə və təhlillərlə müəyyən edilmişdir ki, aktla 9.877 şəxs cəzadan azad olundu. Amnistiya 8.560 kişi, 1.317 qadın, həmçinin yetkinlik yaşına çatmayan 11 şəxs barəsində tətbiq edildi.

Penitensiar müəssisələrdə cəza çəkən 2.861, intizam xarakterli hərbi hissədə saxlama cəzası çəkən 104, islah işləri növündə cəza çəkən 2.091, ictimai işlər növündə cəza çəkən 226 və maddi vəziyyəti ilə əlaqədar olaraq 3 milyon manatdan artıq məbləğdə cərimәni ödəyə bilməyən 4.225 məhkum amnistiya nəticəsində cəzalardan azad olundu. Həmçinin şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 370 məhkum barəsində də amnistiya tətbiq



edildi.

Amnistiyanın tətbiq olunduğu 9.877 nəfərin böyük əksəriyyəti, yəni 98 faizi ciddi ictimai təhlükə törətməyən və az ağır cinayətlər törətməyə görə məhkum olunmuş, 2 faizi isə ağır və xüsusilə ağır cinayətlərə görə cəzalandırılan, lakin cəzalarının sonuna az müddət qaldığı üçün amnistiya aktı ilə nəzərdə tutulan məhdudiyyətlərin təsiri altına düşməyən şəxslərdir.

Ümumiyyətlə, Heydər Əliyevin bərqərar etdiyi siyasətin mahiyyətini əks etdirən bu humanist addım nəticəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmişdir. Qəbul edilmiş 8 amnistiya aktı 87 mindən çox şəxsə tətbiq edilmiş, o cümlədən təxminən 23 min məhkum cəzaçəkmə müəssisələrindən azad olunmuşdur.

Bu nəcib işin təşəbbüskarı olan Heydər Əliyev Fondu, onun rəhbəri Mehriban Əliyeva ümidvardır ki, amnistiya aktına əsasən cəzadan azad edilmiş şəxslər müasir Azərbaycan dövlətinin layiqli vətəndaşı olacaq, qanunlara hörmət ruhunda davranaraq, Vətənə və xalqa sədaqətlə xidmət edəcəklər.

# OT KÖKÜ ÜSTÜNDƏ BİTƏR



*Nərmin ƏZİMZADƏ*
***Bakı Məktəbliləri Parlamentinin Ekologiya Komissiyasının sədri, 47 saylı məktəbin şagirdi***

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Mən ölkəmi dünyəvi, amma öz milli köklərinə bağlı olan bir dövlət kimi görmək istəyirəm. Hər bir ölkənin öz xüsusiyyəti var. Mən öz kökümüzlə fəxr edirəm".

Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü işlər DÜNYANIN ƏN BÖYÜK AZƏRBAYCANLISInın bu kəlamına əyani sübutdur. Heydər Əliyev Fondunun məramını və məqsədini milli-mənəvi dəyərlərimizin inkişafına qulluq etməkdə görən Mehriban xanım gənc nəslə, biz uşaqlara



əsil azərbaycanlı olmağı, Azərbaycanı sevməyi, onu qiymətləndirməyi və nəhayət təmsil etmək bacarığını öyrədir.

Ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəaliyyətə aktiv şəkildə qoşulandan Mehriban xanım Əliyeva qazandığı böyük uğurlar sayəsində ölkəmizin hüdudlarından kənarda da xeyirxah, humanist, xeyriyyəçi bir insan kimi tanınmışdır. Onun bilavasitə təşəbbüsü və dəstəyi ilə bir sıra ölkələrdə xeyriyyə tədbirləri həyata keçirilmiş, məktəblər, xəstəxanalar və s. mədəni-maarif müəssələri tikilib insanların istifadəsinə verilmişdir.

Mehriban xanım möhtərəm prezidentimiz İlham Əliyev cənabları ilə birlikdə ölkəmizin rayonlarını, kəndlərini qarış-qarış gəzərək burada yaşayan əhalinin qayğıları ilə maraqlanır, onların illərdən bəri yığılıb qalmış problemlərinin həllinə yardım edir. Bu gün ölkəmizin elə bir bölgəsinin adını çəkmək mümkün deyil ki, orada Mehriban xanımın əməyinin izlərini görmək mümkün olmasın: məktəblər, xəstəxanalar, uşaq evləri, uşaq bağçaları, kitabxanalar, yollar və s.

Mehriban xanımın ictimai-mədəni fəaliyyətindən danışarkən mən bir cəhətin üzərində xüsusi dayanmaq istəyirəm. Bu da onun Azərbaycanın milli-mənəvi dəyərlərinə, tarixi irsinə, keçmişinə və gələcəyinə

olan daimi diqqət və qayğısıdır. Anam həmişə deyir: "Qızım, "İtə ataram, yada satmaram" məşhur əsərin müəllifi Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açmış və tərbiyə almış insandan xeyirxahlıqdan, humanizmdən başqa nə gözləmək olar ki..."

Azərbaycan muğamının yaxın illərə qədərki vəziyyəti hamımıza bəllidir. Bu böyük xalq sənəti son illər ayaq açıb yeriyən bayağı, yüngül, milli mənəviyyatımıza uyğun olmayan yabançı misiqilər arasında az qala itib-batmaqda, keçmiş şöhrətini itirməkdə idi. Mehriban xanım 2005 və 2007-ci illərdə gənclər arasında muğam müsabiqələri təşkil etməklə ona təzə nəfəs, təzə həyat və şöhrət gətirdi. Neçə-neçə istedadlar parlayıb üzə çıxdı. Neçə-neçə gənc Mehriban xanımın sayəsində bu ulu sənətin zirvələrinə doğru uğurlu addımlar atdı. Bu gün muğam ölkəmizin hududlarını aşaraq bütün dünyanı qarış-qarış gəzməkdə, insanların qəlblərini fəth etməkdədir.

Mehriban xanımın fəaliyyəti haqqında çox danışmaq olar. Lakin deyilənlər də kifayətdir ki, onun ictimai və mədəni həyatdakı rolunu təsəvvür edə bilək. Bir azərbaycanlı qızı olaraq mən Mehriban xanım Əliyevaya daha böyük müvəffəqiyyətlər arzulayır və söz verirəm ki, Azərbaycanı sevməkdə məhz ona oxşayacağam.



# MEHRİBAN ƏLİYEVA: BÖYÜK İŞLƏRİN KİÇİK XRONİKASI



***Kənan BAĞIROV***
***Azərbaycan Kooperasiya Universitetinin tələbəsi, Uşaqdan-Uşağa Sülh Şəbəkəsinin üzvü***

Azərbaycan təhsilinin, mədəniyyətinin inkişafı, onun dünya ictimaiyyətinə çatdırılması, tarixi abidələrimizin qorunması, valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqların normal inkişafı üçün yüksək səviyyədə şəraitin yaradılması və s. haqda danışarkən, Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, millət vəkili, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın adını çəkməyə bilmərik. Onun uşaqların problemlərinə diqqət və qayğısı, həyata keçirdiyi xeyriyyəçilik

fəaliyyəti, uşaq evlərinin yeniləşdirilməsi və müasirləşdirilməsi, yeni məktəblərin tikilməsi və bərpası, diabetli uşaqların müalicəsi istiqamətində gördüyü işlər gün-gündən daha geniş miqyas alır.

İxtisasca həkim olan Mehriban xanım mədəniyyət, səhiyyə və idman sahəsində də geniş fəaliyyət göstərir. 1995-ci ildən etibarən rəhbərlik etdiyi "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə, Mehriban xanım Əliyeva mədəni irsimizin təbliği, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərməkdədir. Azərbaycan klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə Mehriban xanım Əliyeva Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması təşəbbüsü ilə çıxış etmiş və qısa bir zamanda bu təşəbbüsü reallaşdırmışdır.

Tamamilə qanunauyğundur ki, 2004-cü ilin sentyabrında Mehriban xanım xalq musiqisinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi tövhələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xitmətlərinə və YUNESKO-nun ideyalarına sadiqliyə görə bu təşkilatın "Xoşməramlı səfir"i adına layiq görülmüşdür. Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri çərçivəsində sentyabrın 9-da Parisdə - YUNESKO-nun iqamətgahında bu münasibətlə xüsusi mərasim keçirilmişdir. Mərasimdə çıxış edən YUNESKO-nun Baş direktoru Koiçiro Matsuura böyük məmnuniyyətlə rəhbərlik etdiyi təşkilatın "Xoşməramlı səfir" diplomunu və vəsiqəsini Azərbaycanın birinci xanımına təqdim etmişdir.

Təqdimatdan sonra Mehriban xanım Əliyeva mərasimdə çıxış edərək, "Xoşməramlı səfir" fəxri adına layiq görüldüyünə görə, YUNESKO rəhbərliyinə minnətdarlığını bildirmiş, gələcək fəaliyyətində YUNESKO-nun dünya mədəni irsinin qorunması prinsiplərini rəhbər tutacağını bəyan etmişdir: "Şərqlə Qərb arasında körpü olan Azərbaycanın mədəniyyətində Şərq və Qərb mədəniyyətlərinin sintezi özünü bariz şəkildə göstərir. Mən fəxr edirəm ki, Üzeyir Hacıbəyov, Qara Qarayev, Mstislav Rostropoviç kimi şəxsiyyətlərin vətəni olan ölkəni YUNESKO-da Xoşməramlı səfir kimi təmsil edəcəyəm". Əminliklə bildirmək olar ki, Mehriban xanım bu vədini layiqincə doğrultmaqdadır.

2004-il dekabrın 15-də Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva YU-

NESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair Kazanda keçirilən regional seminarda iştirak etmək üçün Tatarıstanın paytaxtına səfər etmişdir. Seminarda tatar xalqının milli Sabantuy bayramının YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsi ilə bağlı müzakirələr zamanı Mehriban xanım Əliyeva bildirmişdir ki, "Sabantuy bayramı YUNESKO-nun dünya inciləri siyahısına daxil edilməyə layiq bayramdır. Sabantuy bayramının çox qədim tarixi kökləri var. O, tatar xalqının milli "mən"ini əks etdirir. Bu, çox vacibdir. Axı, qeyri-maddi irsin qorunub saxlanılması haqqında Konvensiya məhz hər bir xalqın milli "mən"inin yaşadılmasına yönəldilmişdir".

2005-ci il martin 3-də Mehriban xanım Əliyeva YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclasında iştirak etmək üçün Fransa paytaxtında olmuşdur. Iclası açan baş direktor səfirlərin beşinci görüşünün iştirakçılarını salamlamış, son bir ildə iki nəfərin xoşməramlı səfir adına layiq görüldüyünü xatırlatmışdır. Xoşməramlı səfir adına layiq görülmüş Mehriban xanım Əliyevanın ölkəmizdəki fəaliyyətindən məlumat verən K.Matsuura bildirmişdir ki, "O, 1995-ci ildən qeyri-hökumət təşkilatı olan "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"na rəhbərlik etməklə yanaşı, mədəni irsin qorunması, 2003-cü ildə YUNESKO-nun bəşəriyyətin mədəni irsi siyahısına daxil etdiyi muğamların təbliği və zəngin Azərbaycan musiqisinin inkişafı sahəsində də xüsusi xidmətlər göstərmişdir..."

Baş direktor həmçinin son zamanlar Mehriban xanım Əliyevanın xəstə və valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərdiyi qayğını yüksək qiymətləndirmişdir. Mehriban xanım Əliyeva iclasda çıxış edərək, milli musiqimiz olan muğam və onun müxtəlif sahələrini əhatə edən 10 layihə üzərində iş getdiyi, bəzilərinin isə artıq sona yetdiyi barədə məlumat vermişdir. Bundan başqa, əsas diqqətin Bakı şəhərində Beynəlxalq Musiqi Mərkəzinin yaradılmasına yönəldildiyini, Azərbaycanda muğamın inkişafı üçün xüsusi proqramların həyata keçirildiyini xatırladan səfir muğamın mədəni irs siyahısına daxil edilməsini ölkəmiz üçün mühüm hadisə kimi qiymətləndirmişdir. İclasdan sonra Parisin "Lödua-yen" salonunda Azərbaycan musiqi nümunələrindən ibarət konsert təşkil edilmişdir.

2005-ci il noyabrın 17-də Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun pre-

zidenti, BMT-nin Elm, Təhsil və Mədəniyyət Məsələləri Təşkilatının (YUNESKO) xoşməramlı səfiri, millət vəkili Mehriban xanım bu qurumun 60 illiyinə həsr olunmuş yubiley tədbirlərində iştirak etmək üçün Parisə səfər etmişdir. Yığıncaqdan əvvəl o, BMT-nin keçmiş baş katibi Butros Qali, ayrı-ayrı vaxtlarda YUNESKO-nun baş direktorları işləmiş Amadu Mathar, M.Bov və Federiko Mayor ilə görüşmüşdür.

2006-cı il Martın 15-də YUNESKO iqamətgahında xoşməramlı səfirlərin illik yığıncağı keçirildi. Mehriban xanım Əliyevanı YUNESKO-nun protokol rəhbəri Jan Lui Şan və xoşməramlı səfirlər proqramının başçısı xanım Basma İrşeid qarşıladılar. Yığıncaq başlanmazdan əvvəl YUNESKO-nun baş direktoru Koişiro Matsuura Mehriban xanım Əliyevanı Azərbaycan parlamentinin deputatı seçilməsi münasibətilə təbrik etdi. Yığıncaq zamanı YUNESKO-nun əsas prinsiplərindən biri olan mədəni və bəşəri irslərin qorunmasında 30 xoşməramlı səfirin gördüyü işlərə toxunan baş direktor Heydər Əliyev Fondu və "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun prezidenti Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi qeyd etdi.

Mehriban xanım Əliyeva da çıxış



edərək respublikada mədəniyyət sahəsində görülən işlər haqqında yığıncaq iştirakçılarına məlumat verdi.

Mehriban xanım Əliyeva YUNESKO-nun 60 illiyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovşağında" adı altında keçirilən Azərbaycan günü ilə bağlı tədbirdə iştirak etmək üçün 2006-cı ilin oktyabr ayında Parisə növbəti dəfə səfər etdi. "Azərbaycan günü" YUNESKO-nun sərgi salonunda təşkil olunmuş və respublikamızın gözəl mənzərələrini, zəngin mədəniyyətini, tarixini, xalqımızın adət-ənənələrini, mədəni irs nümunələrini, azsaylı xalqların həyatını əks etdirən fotoşəkillərdən, sənət nümunələrindən ibarət sərgi ilə açıldı. Sərgini açan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev xoşməramlı səfir Mehriban xanım Əliyevanın səyləri sayəsində son zamanlar YUNESKO ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlığın inkişaf etdiyini xüsusi vurğuladı, təhsil sisteminin yenidən qurulmasında, mədəni və qeyri-maddi irsin qorunub saxlanılmasında, abidələrimizin dünyanın mədəni irsi siyahısına daxil edilməsində bu təşkilatın rolundan danışdı.

Mehriban Əliyeva açılış mərasimində çıxış etdi. Rəsmi hissədən sonra Azər-

baycan incəsənət ustalarının geniş konsert proqramı oldu. Böyük uğurla keçən konsertdə dünya şöhrətli fransız müğənnisi Patrisia Kaas bir neçə mahnı oxudu və tamaşaçılara "Can, Azərbaycan!" sözləri ilə müraciət etdi. Konsertdən sonra səhnə arxasına gələn Mehriban xanım Əliyeva sənətçilərlə görüşdü.

2006-cı il dekabrın 4-də Mehriban xanım Əliyeva Amerika Birləşmiş ştatlarına səfər etdi. Səfər çərçivəsində o, ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupunun həmsədrləri, konqressmenlər - demokrat Solomon Ortis, respublikaçı Bil Şuster və qrupun üzvləri Ed Uilfild, Visente Foks ilə görüşdü. Görüş zamanı xanım Əliyeva Azərbaycanla ABŞ arasında münasibətlərin yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini vurğuladı. Bundan başqa, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin aradan qaldırılması, Azərbaycanın geostrateji mövqeyi, ölkəmizin müasir durumu ətrafında müzakirələr aparıldı. Hər iki tərəf parlamentlərarası əlaqə və mübadilələrin ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi üçün əhəmiyyətini vurğulamış və bu sahədə müəyyən proqramın tərtib edilməsinin zəruriliyini qeyd etmişlər. Mehriban xanım ABŞ Konqresinin Avropa və yeni təhlükələr üzrə Alt Komitəsinin sədri vəzifəsinə namzəd konqresmen Robert Uekslerlə də görüşdü.

Dekabrın 7-də Mehriban Əliyeva Ağ evdə ABŞ dövlətinin birinci xanımı Lora Buş ilə görüşdü. Azərbaycanlı qonaq səfər zamanı göstərilən qonaqpərvərliyə görə xanım Lora Buşa təşəkkürünü bildirdi. Səmimi şəraitdə keçən söhbətdə hər iki ölkənin birinci xanımları Azərbaycan-ABŞ münasibətlərinin möhkəmləndirilməsində təhsil, səhiyyə, mədəniyyət sahələrinin rolundan danışdılar.

2007-ci mayın 17-də Cenevrədə Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanı olan Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasında iştirak etmək üşün Mehriban Əliyeva Cenevrəyə səfər etdi. Assambleyanın sədri, Avstraliyanın səhiyyə naziri xanım Ceyn Halton yığıncağı açaraq, bəşəriyyəti təhdid edən geniş yayılmış xəstəliklərin qarşısının alınmasında həkimlərin şərəfli əməyindən danışdı. Sədr Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyevanın təkcə mədəniyyət və təhsil sahəsində deyil, həm də səhiyyə sahəsində göstərdiyi xidmətləri yüksək qiymətləndirdi. O, Mehriban xanım Əliyevanın İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun müka-

fafina layiq görüldüyünü elan etdi və mükafatı Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya təqdim etdi.

Mehriban xanım Əliyeva Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasında iştirakı çərçivəsində mayın 18-də BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında "Azərbaycan otağı"nın açılışında da iştirak etdi. O, ölkəmizi təmsil edən eksponatlar - İçərişəhərin təsvir edildiyi tablo, Bakıda, Qarabağda və Qubada toxunmuş XVII və XVIII əsrlərə aid xalçalar haqqında baş direktora məlumat verdi. Birinci xanım çıxışında otağın bərpa olunmasında yaxından iştirak etmiş BMT bölməsinin rəhbərliyinə təşəkkürünü bildirdi. Son illər Azərbaycanda mühüm layihələrin həyata keçirildiyini, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun getdikcə artdığını xatırladan xanım Əliyeva iqtisadi qüdrətin dinamik şəkildə yüksəldiyini də vurğuladı.

Ümumiyyətlə, Mehriban xanımın fəaliyyət sferası geniş və rəngarəngdir. O, həm millət vəkili, həm Heydər Əliyev Fondunun Prezidenti, həm də YUNESKO və İSESKO-nun xoş məramlı səfiri kimi Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, mədəni-tarixi abidələrinin qorunmasına, Azərbaycan mədəniyyətinin dünya ictimaiyyətinə tanıdılmasına və



yüksək səviyyədə təbliğ olunmasına çalışır. Bu isə hər bir azərbaycanlıya, xüsusilə yeni nəslə və gənclərə örnək ola biləcək bir xüsusiyyətdir.










HEYDƏR ƏLİYEV FONDU
2005-ci ilin yekunları


2005
ilin
Adamı
AND




## DÜNYA LİDERLƏRİ HEYDƏR ƏLİYEV FONDU HAQQINDA

**Azərbaycan Prezidenti**
**İlham Əliyev:**



"Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyevin doğum günüdür. Bu bayram günündə onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilmişdir. "Heydər Əliyev Fondu" xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir".



**Türkiyənin XI prezidenti**
**Süleyman Dəmirəl:**



"Azərbaycanın dəyərli Cümhurbaşqanı, türk dünyasının ulduz liderlərindən biri, türkün böyük övladı, əziz dostum və qardaşım mərhum Heydər Əliyevin muzeyi Azərbaycan xalqının qədirbilənliyinin möhtəşəm bir göstəricisidir. Çox şad oldum. O böyük dövlət adamının əbədiyyətə qədər yaşayacağına inanıram. Xatirəsi türk millətinin dərin qəlbindədir. Xatirəsini saygı ilə anıram. Allah rəhmət eləsin. Rahat uyu, əziz qardaşım. Gözəl ölkən və bütün türk dünyası səni sevir və sayır".

**Rusiya Prezidenti**
**Vladimir Putin:**



"Heydər Əliyev Fondunun fəaliyyəti ilə böyük maraqla tanış oldum. Fond Azərbaycan xalqının görkəmli oğlunun xatirəsini nəinki yaşadır, həm də mühüm istiqamətlərdən birində onun işini davam etdirir, insanlara ən müxtəlif humanitar sahələrdə - təhsil, səhiyyə və s. sahələrdə kömək göstərir".



**Yunanıstan Prezidenti**
**Konstantinos Stefanopulos:**



"Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyev kimi tarixi bir şəxsiyyətin adını daşıyan Fondda olmağımdan çox şadam. Mən Prezident Heydər Əliyevlə ilk görüşlərimi böyük məmnuniyyətlə xatırlayıram. Bu gün isə Fonda gələrək, bu unudulmaz şəxsiyyəti bir daha yada salır, ona Allahdan rəhmət diləyirəm".

**İranın keçmiş Prezidenti Məhəmməd Xatəmi:**



"Mən Azərbaycanda Heydər Əliyev Fondunu ziyarət etməyi arzu edirdim. İndi bu Fondu ziyarət etmək mənə çoxlu xatirələri yada salır və cənab Heydər Əliyevin Azərbaycanın müstəqil olması, inkişaf etməsi, ölkədə sabitlik və təhlükəsizlik şəraiti yaratması mənim bu xatirələrimi və onunla keçirdiyim görüşləri dirildir. Hamımız bilirik ki, iki qonşu və müsəlman ölkə - İran və Azərbaycan arasında yaranan əlaqələr mərhum Heydər Əliyevin rolunu göstərir və bu rol həmişəyaşardır.



**Rusiyanın birinci prezidenti Boris Yeltsin:**



"Mən Heydər Əliyev Fondu ilə aşkar heyranlıqla tanış oldum. Mən Heydər Əliyeviçi yaxşı tanıyırdım, onunla müxtəlif şəraitlərdə tez-tez görüşürdüm. Ona çox-çox hörmət edirdim. Fondun binası, onun eksponatları və məzmunu ölkə sakinlərinin bütün nəsilləri üçün böyük İnsan haqqında əbədi xatirənin kiçicik, lakin çox mühüm bir hissəsidir. Fondun gözəl binasına görə əhsən və sağ olun. Sağ olun, Mehriban xanım".

**Finlandiya prezidenti xanım**
**Tarya Halonen:**



"Heydər Əliyevin xatirəsini yad edən maraqlı sərginizə görə sizə dərin minnətdarlığımı bildirirəm. Bu sərgi sizin dövlətinizin formalaşdırılmasına həsr olunub və Avropa tarixinin çox maraqlı bir hissəsini əks etdirir".





# MÜNDƏRİCAT


| | |
|---|---|
| *Nizami CƏFƏROV* | *3* |
| *Tahir ŞAHBAZOV* | *5* |
| *Fərid ŞAHBAZLI* | *14* |
| *Aqil MEHDİ* | *20* |
| *Zöhrə SADIQOVA* | *29* |
| *Tural CƏFƏROV* | *33* |
| *Etibar HÜSEYNOV* | *37* |
| *Yalçın HACIYEV* | *41* |
| *Tural ƏLİYEV* | *44* |
| *Könül ƏKBƏROVA* | *48* |
| *Elza İSGƏNDƏRLİ* | *51* |
| *Laman DADAYEVA* | *55* |
| *Ülvi ƏSƏDLİ* | *59* |
| *Eyyub BAĞIROV* | *63* |
| *Nərmin ƏZİMZADƏ* | *66* |
| *Kənan BAĞIROV* | *69* |



**Dizayn:** **"Parlaq Gələcək" Design**

**Kitab Heydər Əliyev Fondunun rəsmi internet saytının materiallarından istifadə olunmuşdur.**

**Çapa imzalanıb: 02.02.2008. Sifariş: 11. Tiraj: 90**

**mətbəəsində çap olunmuşdur**